# "PAYIZ PIÇILTILARI"

## Cavanşir Yanarın kitabı barəsində qeydlər

**Azərbaycan oxucusu ağsaqqal şairimiz, necə deyərlər, xalqın şairi Oqtay Rzanın özünü də, sözünü də yaxşı tanıyır. Eləcə də onun zövqündən də hər kəsin xəbəri var. Bax, bu prizmadan yanaşanda mən də Oqtay Rzanın bir oxucusu kimi təbii ki, onun istək və arzularına qarşılıq verməyə borcluyam. Deməli, elə indi oxuyacağınız yazının da araya-ərsəyə gəlməsinin səbəbkarı məhz xalqın şairi Oqtay Rzadı.**

Yaxın günlərin söhbətidi. Telefonuma zəng gəldi. Həmişəki ərklə:

- Mədətoğlu, birinci mərtəbədəyəm. Düş gəl bir çay içək - dedi Oqtay Rza.

Əlimdəki işi bir kənara qoyub ustadın çağırışına tələsdim. Görüşdük və qovluğundan bir kitab çıxarıb mənə təqdim etdi:

- Maraqlı şairdi. Oxumuşam, sən də oxu...

Beləcə, Oqtay Rza təqdim etdi mənə Cavanşir Yanarı. Və mən də elə həmin təqdimatın izinə düşüb "Payız pıçıltıları"nı oxudum. Və gördüm ki, Oqtay müəllim mənə fikirlərini səmimi ifadə edən bir söz adamını təqdim edib. Yeri gəlmişkən onu da vurğulayım ki, mən bir oxucu kimi daha çox səmimi sözə etibar edirəm. Səmimi sözə önəm verirəm. Bax, bu kitabdakı səmimiyyət də məni özünə çəkdi. Oxuduqca gördüm ki, şair Cavanşir Yanar öz səmimi duyğularını elə özünəməxsus şəkildə də qələmə alıb və yazıb:




**Sənə uzaqlardan baxan Cavanşir**
**Həsrət qalacaqdır nə vaxta qədər?!**
**Qəlbini eşq odu yaxan Cavanşir**
**Tənha olacaqdır nə vaxta qədər?!**

Və yaxud:

**Sən məndən nə qədər ehtiyat etsən,**
**O qədər üzülüb tükənirəm mən.**
**Nahaq uzaqlaşıb, ha yana getsən,**
**Əsla üz çevirə bilmərəm səndən!**

Elə buradaca vurğulayım ki, Cavanşir Yanarın sonetləri daha çox sevgiylə, həssas duyğularla cilalanıb. Onun bu üslubda yazdığı şeirlərinin qəhrəmanı mənə elə gəlir ki, daha çox elə onun özüdür. Digər şeirlərində də müəllif öz yaşantılarını, öz hiss və həyəcanını oxucu önünə çıxarır. Və bununla da özü birbaşa oxucu ilə birbaşa üz-üzə dayanır.

**Ayaqlarım hara çəkib aparır-**
**Başım, gözüm, canım, hissim ordadır.**
**Duyğuları içimdə fəryad qoparır,**
**Sözüm fərəqlərdə, səsim hardadır.**

Və yaxud:

**Hicran nəğmələri qoşdum həmişə,**
**Möhnəti qəlbimdən qoparmaq üçün.**
**Dəniz tək kükrəyib, coşdum həmişə,**
**Könül dalğaların qabartmaq üçün.**

Bu nümunələrdən də göründüyü kimi şairin təkcə öz his də duyğularını ifadə etmək istəyi yox, həm də sözlə işləmək, sözü qəlbə yerləşdirmək peşəkarlığı da yetərincədir.

Ümumiyyətlə, Cavanşir Yanarın "Payız pıçıltıları" adlı kitabının tərtibatından tutmuş onun ifadə etdiyi mövzulara qədər hər bir məna, hər bir fikir özü-özlüyündə şairin oxucuya münasibətini də təqdim etmiş olur. Açıq şəkildə görünür ki, müəllif könül verdiyi söz dünyasında öz yerini, öz sözünü dəyərləndirməyi bacarır. Ona görə də kitabdakı son şeirində o oxucu qarşısında etirafını da dilə gətirir və yazır:

**Nə Nizami olmaq keçib könlümdən,**
**Nə də Füzulinin xatirəsiyəm.**
**Nə qorxum-ürküm var şərdən, ölümdən,**
**Nə də haqq yolunu itirəsiyəm...**

**Mənalı keçirib sadə ömrümü,**
**Şərəflə yaşamaq arzusundaym.**
**Məqam axtarıram deyəm sözümü,**
**Haqqı axtaranlar sırasındayam.**

**Halallıq rəmzidir işim və sözüm,**
**Kəsibdir yolumu zorun hikkəsi;**
**Payız buludu tək tutqundur üzüm,**
**Yenə də yeyilir yetim tikəsi...**

**Bəli mənə elə gəlir ki, şair Cavanşir Yanar bu etirafı ilə özünü və sözünü birbaşa oxucuya təqdim edir. Onun əlavə təqdimata ehtiyacı qalmır. Yəni son söz oxucunundur. Oxusun və fikrini bildirsin. Mən də bir oxucu kimi Cavanşir Yanara yaradıcılıq uğurları diləyrəm.**

**Əbülfət MƏDƏTOĞLU**

ədalət.-2017.-26 yanvar.-S.4.